# Atillanın uğurları



**Məhin Orucova**
*Əməkdar müəllim*

Məmmədov Atilla Yasin oğlu 2007 – ci ilin dekabr ayında Bakı şəhərində anadan olub. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərən A.Məmmədov klassik musiqi nümunələrini dinləməklə yanaşı həm estrada, həm də caz musiqisinə biganə qalmır. Bununla belə o, ilk dəfə səhnəyə Robertino lorettinin "Jamaica" mahnısı ilə çıxır. Hələ 8 yaşında Türkiyə Respublikasında keçirilən " O səs çocuklar" yarışmasında uğurla çıxış edərək tamaşaçıların böyük rəğbətini qazanır və finala qədər yüksəlir / Yarışma boyunca klassik mahnılar ifa edən Atilla münsifləri heyrətə gətirir. Daha sonra bir sıra Respublika və Beynəlxalq müsabiqələrdə iştirak edir.O cümlədən "World Harmony", "Wonderland", "Florida Keys", Testene art" və s. müsabiqələrin qalibi olub. 2018-ci ildə Rusiya Federasiyasının Moskva şəhərində keçirilən "Vo ves qolos" müsabiqəsinin Azərbaycan təmsilçisi olub.




Bununla yanaşı Atilla Məmmədov həm də aktyorluq sənəti ilə də məşğul olur.Belə ki o, Azərbaycanda ilk dəfə Azərbaycan Akademik Musiqili Teatrının səhnəsində tamaşaya qoyulan Antuan De Sent Ekzüperinin "Balaca şahzadə" müziklında baş rola dəvət alır.

2016-cı ildə "Zima" Beynəlxalq Uşaq Musiqi festivalında iştirak edirək "Ey Vətən" mahnısını böyük məharətlə ifa edir. Ümumiyyətlə, onun repertuarında vətənpərvər mahnılar xüsusi yer tutur.

Bütün bu parlaq nailiyyətlərinə görə Azərbaycan Respublikaının Prezidenti İlham Əliyevin 21 iyun 2017-ci ildə imzaladığı sərəncama əsasən Atilla Məmmədovun adı "Gənc istedadların Qızıl





Kitabı"na yazılıb və Prezident təqaüdünə layiq görülüb.Hələ 12 yaşında Azərbaycan Akademik Musiqili Teatrının səhnəsində "Ey Vətən" adlı ilk solo konsertini təqdim edib.

Mütəmadi olaraq televiziya verilişlərinin qonağı olur.

2022-ci ildə 1 iyun "Uşaqların Beynəlxalq Müdafiəsi Günü"ndə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Şuşa Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə məktəblilər arasında "Şuşa ili"nə həsr olunmuş "Könlüm keçir Qarabağdan" adlı Respublika İncəsənət Festival-Müsabiqəsinin yekun konsertində P.Bülbüloğlunun "Qarabağım" adlı mahnısı ilə çıxış edib.

Hal hazırda Atilla Məmmədov Cövdət Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbinin vokal ixtisası üzrə XI sinif şagirdidir.



